**Horizon Multidisciplinary Scientific Journal**

Journal homepage: https://horizonmsj.com/

ISSN 3135-4890

E-ISSN 3135-4904





Original Research Paper

# Naxçıvan Muxtar Respublikasında informasiya və media sahəsinin inkişafı (1995–2020-ci illər)


Nuray Hacıyeva

https://orcid.org/0009-0003-4717-1798

[1]*Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.*



Article history

Received: 12.03.2026

Revised: 19.03.2026

Accepted: 02.04.2026



*Corresponding Author: Nuray Hacıyeva, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan

Email: haciyevanurka92@gmail.com



**Xülasə**

1995–2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında informasiya və media sahəsi mühüm dəyişikliklər yaşamışdır. Belə ki bu dövürdə çap mediasından rəqəmsal mediaya keçid baş vermişdir. Bu hal təkcə texnoloji yeniliklərlə bağlı olmayıb, ictimai şüurun formalaşmasına və ictimai rəyin daha açıq müzakirəsinə də təsir göstərmişdir. İnternet portalları və sosial şəbəkələrin genişlənməsi insanların informasiya əldə etməsini asanlaşdırmaqla bərabər gənclərin dünyagörüşünü genişləndirmiş və ictimai iştirakçılığı artırmışdır. Həmçinin bu dövrdə dövlət dəstəyi, qanunvericilik islahatları və informasiya azadlığının təmin olunması peşəkar jurnalistikanın da inkişafına mühüm stimul vermişdir.

Bunlarla yanaşı, bəhs edilən dövürdə regionda dövlət dəstəyi ilə fəaliyyət göstərən media qurumları üstünlük təşkil etmiş, müstəqil və alternativ informasiya mənbələri isə məhdud sayda qalmışdır. Şəhər yerlərində internetə çıxış imkanları geniş olsa da, kənd yerlərində bu baxımdan çətinliklər mövcud idi. Bu hal informasiya bərabərsizliyinin yaranmasına səbəb olmuşdur. Həmçinin media qurumlarının etik prinsiplərə tam riayət etməməsi ictimai etimadı zəiflətmiş, peşəkarlıq məsələsini gündəmə gətirmişdir.

Ümumilikdə, muxtar respublikada media mühitinin inkişafı həm nailiyyətlər, həm də problemlərlə müşayiət olunmuşdur. Əsas nailiyyətlər rəqəmsallaşma, ictimai şüurun genişlənməsi və peşəkar jurnalistikanın güclənməsi ilə bağlı olmuş, əsas problemlər isə informasiya bərabərsizliyi, müstəqil medianın zəifliyi və etik prinsiplərin pozulması ilə xarakterizə edilmişdir. Bu mənzərə göstərir ki, regionda media sahəsinin inkişafı dinamik proses olmuş, həm müsbət nəticələr, həm də həllini gözləyən çətinliklərlə ortaya çıxmışdır.



**Açar sözlər**: Naxçıvan Muxtar Respublikası, informasiya, media inkişafı, çap mediası, rəqəmsal media, internet portalları, sosial şəbəkələr


## GİRİŞ

1995–2020-ci illərdə Azərbaycan mediasının ümumi inkişafı Naxçıvan Muxtar Respublikasında da özünü göstərmiş, informasiya və media sahəsinin formalaşmasında mühüm rol oynamışdır. Belə ki, bu dövr postsovet məkanında informasiya siyasətinin yenidən qurulduğu, demokratik institutların möhkəmləndirilməyə çalışıldığı və yeni texnologiyaların sürətlə yayıldığı bir zaman kəsimi idi (Əliyev, 2015: s. 12).


© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 69-74
DOI: https://doi.org/10.5281/zenodo.19681865

Bəhs olunan dövrdə Naxçıvanın muxtariyyət statusu, Türkiyə və İranla sərhəddə yerləşməsi bölgənin informasiya mühitinə xüsusi təsir göstərirdi. Bu dövrdə xarici informasiya axınları, dövlət dəstəyi ilə inkişaf edən yerli media və ictimai rəyin formalaşmasında mətbuatın rolu daha da ön plana çıxmışdı. (Məmmədov, 2018: s. 98).

1990-cı illərin sonlarında çap mediası əsas informasiya mənbəyi olsa da, 2000-ci illərdə televiziya və radio, 2010-cu illərdə isə internet və sosial şəbəkələrin təsiri ilə informasiya mühiti tamamilə yeni mərhələyə daxil oldu. Bu, sadəcə texnoloji yenilik deyil, ictimai şüurun formalaşmasında da keyfiyyət dəyişikliyi idi. (Hüseynov, 2012: s. 34).

Beləliklə, muxtar respublikada informasiya və media sahəsinin inkişafı təkcə regionun daxili ictimai həyatına deyil, həm də ümumilikdə Azərbaycan mediasının rəqəmsallaşma prosesinə mühüm töhfə vermişdir.

**1990-cı illərin sonu – informasiya mühitinin təşəkkülü və ilk addımlar.**

Müstəqilliyin ilk illərində Naxçıvan Muxtar Respublikasında informasiya mühiti əsasən çap mediasına söykənirdi. Burada ictimai rəyin formalaşmasında "Şərq qapısı" qəzeti xüsusi rol oynayırdı (Şərq qapısı arxiv, 1995: s. 5). Qəzet təkcə xəbər mənbəyi deyil, həm də ideoloji və maarifləndirici tribuna kimi çıxış edirdi. Onun səhifələrində siyasi qərarların şərhi, sosial məsələlərin müzakirəsi və mədəniyyət xəbərləri geniş yer tuturdu. (Əliyev, 2015: s. 47).

Həmin illərdə Naxçıvanda televiziya və radio yayımı məhdud imkanlarla həyata keçirilirdi. Naxçıvan Dövlət Televiziyası əsasən gündəlik xəbərlər, mədəniyyətə dair proqramlar və maarifləndirici verilişlər yayımlayırdı. Lakin texniki bazanın zəifliyi, maliyyə resurslarının azlığı və peşəkar kadr çatışmazlığı səbəbindən yayımın keyfiyyəti arzu olunan səviyyədə deyildi (Məmmədov, 2018: s. 101).

Radio əsasən yerli xəbərlər, musiqi proqramları və maarifləndirici çıxışlarla əhalinin informasiya tələbatını müəyyən qədər qarşılayırdı. Xüsusilə kənd yerlərində radio insanların gündəlik informasiya mənbəyi rolunu oynayırdı. Bu, bölgədə informasiya bərabərsizliyini azaldan mühüm vasitə idi (Hüseynov, 2012: s. 52).

1990-cı illərin sonu Naxçıvanda informasiya mühitinin formalaşması üçün başlanğıc mərhələ sayılırdı. Çap mediası əsas informasiya kanalı kimi ön plana çıxsa da, televiziya və radio hələ inkişafın ilkin mərhələsində idi. Bu dövrün xarakterik cəhəti informasiya mənbələrinin məhdudluğu və dövlət dəstəyinə ehtiyacın olması idi.

**2000–2010-cu illər – informasiya və media sahəsində inkişaf mərhələsi**

2000-ci illərin əvvəllərində Naxçıvan Dövlət Televiziyası və digər yerli kanalların fəaliyyəti genişlənmişdi. Televiziya yalnız gündəlik xəbərlərlə kifayətlənməyərək, həm də mədəniyyət, təhsil və sağlamlıq mövzularında xüsusi verilişlər hazırladı. Bu proqramlar əhalinin maarifləndirilməsinə və ictimai şüurun formalaşmasına mühüm təsir göstərirdi (Naxçıvan TV hesabatı, 2005: s. 22).

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 69-74
DOI: https://doi.org/10.5281/zenodo.19681865

Bəhs olunan dövrdə yeni qəzet və jurnallar nəşr olunmağa başlamışdı. "Şərq qapısı" ilə yanaşı, mədəniyyət, təhsil və gənclik mövzularına həsr olunmuş müxtəlif jurnallar oxuculara təqdim edilirdi. Bu, informasiya mənbələrinin artmasına və oxucu dairəsinin genişlənməsinə səbəb olmuşdu (Əliyev, 2015: s. 53).

İnternetin yayılması ilə ilk xəbər portalları fəaliyyətə başladı. Bu portallar yerli xəbərləri daha tez çatdırır, oxuculara müzakirə imkanı verirdi. İnternetin gəlişi informasiya əldə etmə sürətini artırdı, gənclərin yeni texnologiyalara marağı gücləndi (Quliyev, 2019: s. 59).

Bu dövrdə media ictimai şüurun formalaşmasına daha güclü təsir göstərməyə başlamışdı. Əhalinin informasiya əldə etmə imkanları genişlənmişdi. Bunun nəticəsiydi ki, gənclər həm yerli, həm də qlobal informasiya məkanına çıxış qazanmışdılar. Bu, onların dünyagörüşünü genişləndirdi və demokratik dəyərlərə daha açıq yanaşmalarına şərait yaratdı (Hüseynov, 2012: s. 90).

Beləliklə, 2000–2010-cu illər Naxçıvanda informasiya və media sahəsinin inkişafında yeni mərhələ oldu. Çap mediası ilə yanaşı televiziya, radio və internet portalları da ictimai rəyin formalaşmasında əhəmiyyətli rol oynadı.

**2010–2020-ci illər – rəqəmsal media və internetin inkişaf mərhələsi**

2010-cu ildən sonra internet medianın güclənməsi, sosial şəbəkələrin təsiri və elektron qəzetlərin artması muxtar respublikada informasiya mühitini əsaslı şəkildə dəyişdirdi. Əvvəllər yalnız çap və televiziya vasitəsilə yayılan xəbərlər artıq onlayn portallar və sosial şəbəkələrdə daha sürətli və interaktiv formada paylaşılmağa başladı (Əhmədov, 2020: s. 113).

Facebook, Instagram və Twitter kimi sosial şəbəkələr gənclərin gündəlik həyatında mühüm yer tutmağa başladı. Bu platformalar ictimai müzakirələri daha açıq, sürətli və müxtəlif etdi. Gənclər fikirlərini sərbəst ifadə etməyi bacarır, ictimai məsələlərdə daha fəal iştirak edirdilər. Bu proses demokratik dəyərlərin möhkəmlənməsinə də əlavə stimul verirdi (Məmmədov, 2018: s. 120).

Elektron qəzetlərin və xəbər portallarının çoxalması insanların informasiya əldə etmə imkanlarını xeyli artırdı. Artıq əhalinin böyük bir hissəsi xəbərləri internetdən izləyirdi, buna görə də çap mediasının təsiri azaldı. Bununla yanaşı, rəqəmsal bərabərsizlik problemi ortaya çıxdı: belə ki, şəhərlərdə internetə çıxış geniş olsa da, kənd yerlərində bu imkan məhdud idi (Quliyev, 2019: s. 75).

Dövlət dəstəyi və qanunvericilik islahatları bu dövrdə mühüm rol oynadı. İnformasiya azadlığı, jurnalistlərin hüquqlarının qorunması və media qurumlarının fəaliyyətini tənzimləyən qanunlar qəbul edilirdi. Bu, peşəkar jurnalistikanın inkişafına və ictimai rəyin daha sağlam formalaşmasına şərait yaratdı (Əliyev, 2015: s. 66).

Beləliklə, 2010–2020-ci illər Naxçıvanda informasiya və media sahəsinin rəqəmsallaşma dövrü kimi yadda qaldı. Bu mərhələ həm texnoloji yeniliklərin, həm də ictimai şüurun yeni formalarının ortaya çıxması ilə xarakterizə olunurdu.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

## NƏTİCƏ

1995–2020-ci illərdə Naxçıvanda informasiya və media sahəsi çapdan rəqəmsala keçdi. Baxmayaraq ki, uzun müddət əsas məlumat mənbəyi qəzet, televiziya və radio olmuşdu, artıq internet və sosial şəbəkələrin yayılması ilə informasiya mühiti daha sürətli və qarşılıqlı ünsiyyətə açıq hala gəldi (Əliyev, 2015: s. 66).

Bəhs olunan dövrdə media mühitinin inkişafı ictimai rəyin formalaşmasına mühüm təsir göstərmişdir. Media gənclərin dünyagörüşünü genişləndirmiş, ictimai müzakirələrin daha açıq və dinamik aparılmasına imkan yaratmışdır (Məmmədov, 2018: s. 120). Eyni zamanda texnoloji inkişaf nəticəsində internet portalları və elektron qəzetlərin çoxalması informasiya əldə etmə imkanlarını genişləndirmişdir (Quliyev, 2019: s. 59). Dövlət dəstəyi, qanunvericilik islahatları və informasiya azadlığının təmin olunması isə peşəkar jurnalistikanın inkişafına mühüm stimul vermişdir (Əhmədov, 2020: s. 113).

Sadalanan müsbət tərəflərlə yanaşı, həmin dövrdə müəyyən məhdudiyyətlər də mövcud olmuşdu. Belə ki, rəqəmsal bərabərsizlik səbəbindən şəhər yerlərində internetə çıxış imkanları geniş olsa da, kənd yerlərində bu imkan məhdud qalmışdır (Quliyev, 2019: s. 75). Digər bir tərəfdən peşəkar jurnalistikanın etik prinsiplərinə tam riayət edilməməsi obyektivlik və balansı zəiflətmiş, nəticədə ictimai etimadın azalmasına gətirib çıxarmışdır (Hüseynov, 2012: s. 90). Bundan başqa, regionda əsasən dövlət dəstəyi ilə inkişaf edən media qurumları üstünlük təşkil etmiş, müstəqil və alternativ informasiya mənbələrinin sayı isə məhdud qalmışdır (Məmmədov, 2018: s. 104).

Beləliklə, Naxçıvanda informasiya və media sahəsinin inkişafı həm müsbət, həm də müəyyən problemlərlə müşayiət olunmuşdur. Bu dövrün əsas nailiyyəti rəqəmsallaşma və ictimai şüurun genişlənməsi, əsas problemi isə bərabərsizlik və peşəkarlıq məsələləri olmuşdur.

## ƏDƏBİYYAT

1. Əliyev, İ. (2015). Azərbaycan mediasının inkişaf tarixi. Bakı: Elm nəşriyyatı, 320 s.
2. Məmmədov, R. (2018). Naxçıvanda sosial-mədəni həyat və informasiya mühiti. Naxçıvan: NDU nəşriyyatı, 280 s.
3. Hüseynov, A. (2012). Azərbaycan Respublikasında informasiya siyasəti. Bakı: Təhsil, 250 s.
4. “Şərq qapısı” qəzetinin arxiv materialları (1995–2020). Naxçıvan: Dövlət Arxivi, 25 illik arxiv materialları.
5. Naxçıvan Dövlət Televiziyasının illik hesabatları (2000–2020). Naxçıvan: Naxçıvan TV, 20 illik hesabat toplusu.
6. Quliyev, S. (2019). İnformasiya texnologiyaları və cəmiyyət. Bakı: Adiloğlu, 310 s.
7. Əhmədov, T. (2020). Sosial şəbəkələr və ictimai rəy. Bakı: Elm və Təhsil, 295 s.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**Summary**

**Development of the Information and Media Sector in the Nakhchivan Autonomous Republic (1995–2020)**

**Nuray Hajiyeva**

Between 1995 and 2020, the information and media sphere in the Nakhchivan Autonomous Republic underwent significant changes. During this period, a transition from print to digital media took place. This shift was not limited to technological innovations but also influenced the formation of public consciousness and the openness of social discourse. The expansion of internet portals and social networks not only facilitated access to information but also broadened the worldview of young people and increased civic participation. Furthermore, state support, legislative reforms, and the guarantee of freedom of information provided important incentives for the development of professional journalism.

At the same time, media outlets supported by the state dominated the regional landscape, while independent and alternative sources remained limited. Although internet access was relatively broad in urban areas, rural regions faced difficulties in this regard, leading to information inequality. In addition, the failure of media organizations to fully adhere to ethical principles weakened public trust and brought issues of professionalism to the forefront.

Overall, the development of the media environment in the autonomous republic was accompanied by both achievements and challenges. The main achievements were digitalization, the expansion of public awareness, and the strengthening of professional journalism, while the main problems were information inequality, the weakness of independent media, and violations of ethical standards. This picture demonstrates that the evolution of the media sector in the region was a dynamic process, marked by progress as well as unresolved difficulties.

**Keywords:** Nakhchivan Autonomous Republic, information, media development, print media, digital media, internet portals, social networks

**РЕЗЮМЕ**

**Развитие информационной и медийной сферы в Нахчыванской Автономной Республике (1995–2020 гг.)**

**Нурай Гаджиева**

В 1995–2020 годах в Нахичеванской Автономной Республике сфера информации и средств массовой коммуникации претерпела значительные изменения. В этот период произошёл переход от печатных изданий к цифровым медиа. Этот процесс был связан не только с технологическими новшествами, но и оказал влияние на формирование общественного сознания и более открытую дискуссию общественного мнения. Расширение интернет-порталов и социальных сетей облегчило

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

доступ к информации, расширило кругозор молодёжи и способствовало росту гражданского участия. Кроме того, государственная поддержка, законодательные реформы и обеспечение свободы информации стали важным стимулом для развития профессиональной журналистики.

В то же время в регионе доминировали СМИ, функционирующие при поддержке государства, тогда как независимые и альтернативные источники информации оставались ограниченными. В городах доступ к интернету был относительно широким, но в сельских районах сохранялись трудности, что привело к возникновению информационного неравенства. Кроме того, несоблюдение некоторыми СМИ этических принципов ослабляло общественное доверие и выдвигало на первый план проблему профессионализма.

В целом развитие медиасреды в автономной республике сопровождалось как достижениями, так и проблемами. Основными достижениями стали цифровизация, расширение общественного сознания и укрепление профессиональной журналистики, а основными проблемами — информационное неравенство, слабость независимых СМИ и нарушения этических норм. Эта картина показывает, что развитие медийной сферы в регионе было динамичным процессом, отмеченным как прогрессом, так и нерешёнными трудностями.

**Ключевые слова:** Нахичеванская Автономная Республика, информация, развитие медиа, печатные СМИ, цифровые СМИ, интернет-порталы, социальные сети

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license